# Bayram günlərində Qəbələyə 11 minə yaxın turist gəlib

***Qəbələ rayonu gözəl təbiətinə, sıx meşələrinə, soyuq bulaqlarına, mənzərəli çay və göllərinə, paytaxta yaxın olduğuna və burada yaradılan müasir turizm infrastrukturuna görə turistlər üçün daha cəlbedici hesab edilir.***

Ölkəmizdə Novruz bayramı ilə əlaqədar doqquzgünlük tətil fürsətindən istifadə edən turistlər istirahət üçün Qəbələyə üz tutublar.

Turistlərin istirahətinin mənalı təşkili üçün “Qafqaz Resorte”, “Qafqaz Riverside”, “Qafqaz Karvansaray”, “Qafqaz Yengicə Termal Hotel və SPA”, “Qafqaz Sport”, “Qəbələ City”, “Yeddi Gözəl” hotellərində,





“Qəbələnd” istirahət və əyləncə mərkəzində yüksək şərait yaradılıb.

Qəbələyə ailəvi gələn və bir neçə gün rayonda qalıb dincəlmək istəyən turistlər əsasən meşə və çay kənarlarındakı kotteclərdə və kirayə verilən kənd evlərində istirahət etməyə üstünlük veriblər. Rayonun dağlıq və meşəlik ərazilərində yerləşən Vəndam, Nohurqışlaq, Duruca, Qəmərvan, Bum və Bunud kəndlərindəki evlərin təxminən yarısı kirayə verilir ki, bu da yerli əhalinin dolanışıq şəraitinin yaxşılaşmasına səbəb olur. Turistlər rayonda istirahət etməklə yanaşı, Qəbələnin qədim tarixi, müasir şəhərsalma mədəniyyəti ilə ləziz mətbəxi ilə də yaxından tanış olmaq və bu təamlardan dadmaq imkanı əldə ediblər.

Bayram günləri ilə əlaqədar müxtəlif turizm şirkətləri Bakıdan Qəbələyə endirimli qiymətlərlə tur-aksiyalar həyata keçiriblər. Turistlər rahat nəqliyyat vasitələri ilə Qəbələyə gələrək sifariş etdikləri hotellərdə yerləşiblər. Sonra turizm şirkətinin nümayəndələri onları Qəbələdəki “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi, Stend və Ox Atıcılığı Kompleksi, Çuxur Qəbələ kəndində yerləşən və 900 il Qafqaz Albaniyasının paytaxtı olan qədim Qəbələ şəhərinin qalıqları, Nic qəsəbəsindəki “Cotari” alban kilsəsi, Vəndam qəsəbəsindəki “Yeddi Gözəl” şəlaləsi, Qəbələ şəhərindəki “Beltman” piano fabriki, Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış ediblər.

Bayram tətili günlərində rayona 11 minə yaxın turist gəlib ki, bu da ötənilkindən 3 dəfə çoxdur. Qəbələyə gələn turistlərin 4500 nəfərdən çoxu xarici vətəndaşlardır. Onların əksəriyyəti Turkiyə, İran, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Səudiyyə Ərəbistanı, İraq, Qətər, Gürcüstan, Rusiya və Ukraynadan olub. Yerli turistlər isə Bakı, Gəncə və digər şəhərlərdən gəliblər.

Bayram günlərində Qəbələ şəhərindəki Heydər Əliyev adına Konqres Mərkəzində Türkiyənin dünyaca məşhur “Anadolu Ateşi” rəqs qrupunun möhtəşəm konsert proqramı təqdim edilib. Həmçinin Qəbələ Stend və Ox Atıcılığı Kompleksinin restoranında Bakıdan dəvət edilmiş tanınmış müğənnilərin iştirakı ilə maraqlı konsert olub. Qəbələ Mədəniyyət Mərkəzində, rayondakı 10-dan çox beşulduzlu hotelin hər birində yerli müsiqiçilərin iştirakı ilə konsert proqramları, musiqili əyləncəli tədbirlər təşkil edilib. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Parkında keçirilən Novruz şənliyi də yerli və xarici turistlərin böyük marağına səbəb olub.

Qeyd edək ki, hazırda rayonda irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Həmin obyektlərdən 20-si beş, dörd və üçulduzlu hotellər və müasir istirahət mərkəzləridir. Bu turizm obyektlərində gün ərzində 2800 qonağı qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

***«Qəbələ».***

# Ümumdünya Gülüş Günü

Aprelin 1-də bir-birini aldatmaq adətinin meydana gəlməsi haqda müxtəlif versiyalar var. Ən çox yayılmış versiyanın kökü gedib qədim Romaya çıxır. Romada təxminən 2000 il əvvəl hazırkı gülüş gününə oxşar bayramlar təşkil edilirmiş və bu bayramı ağılsızların günü adlandırmışlar.

Hər şey isə qapı qulluqçularından birinin imperator Konstantinə zarafatla gülüşün dövlətə onun özündən çox fayda verə biləcəyini deyəcək qədər ürəklənməsindən başlayıb. Konstantin ona söylədiklərini həyata keçirmək imkanı verib və xüsusi qərar çıxarıb ki, ilin bir günü Romanı zarafatcıl şəxs idarə etsin. Həmin tarixdə ölkənin hər yerində insanlar gülür və müxtəlif zarafatlar edirmişlər. Daha geniş yayılmış nümunələrdən biri isə Roma papası Qriqori tərəfindən hazırlanmış 1582-ci ilin Qriqoryan təqvimi ilə əlaqədardır. Həmin vaxtadək yeni il həftəsi martın 25-dən başlayar, aprelin 1-də başa çatardı. Təqvimin dəyişməsinə baxmayaraq, insanların bəzisi yeni ili köhnə qaydalarla qarşılamağa üstünlük verirdilər.

Əvvəllər Fransada yeni il bayramı məhz aprelin 1-də qeyd olunardı. Həmin gün insanlar bir-birlərini təbrik edər və hədiyyə olaraq təzə balıq göndərərdilər. Lakin XVI əsrdən etibarən kralın fərmanı ilə yeni il dekabrın 31-i - yanvarın 1-i günlərində bayram edilməyə başlamışdı. Amma "Aprel balığı günü" də unudulmamışdı. Həmin gün fransızların gülüş gününə çevrilmişdi.

Qədim zamanlarda bir çox ölkələrdə ildə bir dəfə - məhz aprelin 1-də Səfehlər kralı və ya Zarafatlar kralı təyin edər, şənlənər, lətifələr söyləyərdilər. "Səfehlər Günü"ndə maska geyinmək qayda idi. Çünki belə etdikdə daha təhlükəsiz halda "xuliqanlıq etmək" mümkün idi.

Digər versiya isə Pasxa ilə əlaqədardır. Bildirilir ki, məhz aprelin 1-də müəyyən ölkələrdə Pasxa öncəsi yaz bərabərliyinin başlanğıcı kimi anılıb. Deyilənə görə, insanlar yeni ilin ilk gününü şən zarafatlarla keçiriblər. Belə adamları ələ salır, onlara axmaq hədiyyələr verir, özlərini isə aprel axmaqları adlandırırdılar.

Rusiyada isə gülüş gününün tarixi I Pyotrun hakimiyyəti zamanına təsadüf edir. Həmin vaxt aprelin 1-də səhər Peterburqda əvvəllər yanğın təhlükəsindən xəbər verən həyəcan siqnalı çalınıb. Hamının yerindən dik atılmasına baxmayaraq, bu, zarafatyana tədbir idi.

Lakin Almaniya və Avstriyada aprelin 1-i xoşbəxt olmayan gün sayılırmış. Hesab edirlərmiş ki, bu tarixdə anadan olan adamın həyatda bəxti gətirməyəcək. Ona görə ki, aprelin 1-də İsa Məsihi satan İuda anadan olub. Şeytanın göydən yerə endiyi gün kimi dəyərləndirilən həmin tarixdə kəndlərdə heç kəs işləmirmiş. Həm böyüklər, həm də uşaqlar bir-birilərini aldadaraq əslində yerinə yetirilməsi mümkünsüz olan tapşırıqların arxasınca göndərirlərmiş.

Hazırda dünya əhalisinin 70 faizi 1 apreli gülüş günü kimi qeyd edir, dost-tanışla zarafatlaşır.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Zarağan kənd sakini **İsmayılov İsmayıl Şahhüseyn oğluna** verilmiş JN seriylı 422 F nömrəli (kod 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarına əsasən Bum qəsəbə sakini **Osmanov Rəfail Sədiyar oğluna** verilmiş JN seriyalı 498 nömrəli (kod 40600038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Cığatelli kənd sakini **Nəsibbəyli Arif Şıxamməd oğluna** verilmiş JN seriyalı 137 nömrəli (kod 40605028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibrsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Corlu kənd sakini **Məmmədov Məmmədağa Mirzəfər oğluna** verilmiş JN seriyalı 218 nömrədi (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri üzrə Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 4 avqust 2015-ci il tarixdə Vəndam qəsəbə sakini **Səlimov Rəfail Məhəmməd oğluna** verilmiş RX seriyalı 0694267 nömrəli (reyestr nömrəsi 406013017924) hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **Dövlət reyestrindən çıxarış** və A seriyalı 005486 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

# Diş məcununuzun tərkibindən xəbərdarsınızmı?

Aldığınız diş məcununun sizə faydalı və ya zərərli olduğunu müəyyənləşdirməyin sadə yolu var. Qablaşdırılmış diş məcununun üzərindəki xətt kiçik şriftlərlə yazılanlardan daha mühüm məlumatları əks etdirir.

Həmin xətlərin mənasına görə:

**Qara** - diş məcununda təbii komponent yoxdur, yeni tamamilə sintetikdir.

**Qırmızı** - qabdakı təbii tərkib süni əlavələrə malikdir.

**Göy** - təbii tərkibə müalicəvi inqrediyentlər daxildir.

**Yaşıl** - istifadə etdiyiniz məhsulun kimyəvi əlavəsiz, təbii maddələrdən ibarət olduğunu ifadə edir. Odur ki, diş məcunu aldığınız zaman üzərində yaşıl xətt olan diş məcunlarına üstünlük verməyiniz tövsiyə edilir.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov və muzeyin kollektivi iş yoldaşları **Cimnaz Müzəffərovaya**

**ANASININ**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Könüll Kərimovaya** qayınanası

**HUMAY XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Nərgiz Kərimovaya** qayınanası

**GÜLTAMAM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinə 2017-ci il üçün abunə yazılışı davam edir

«QƏBƏLƏ» qəzetinin reklam xidməti 205-19-14, 205-15-56

Redaktor Varis Yaqubov

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1700*